


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 75 (24.212)

29 aprel 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Fəxri xiyabanda görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib.

Dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstəsi qoyub, əziz xatirəsini ehtiramla anıb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Prezident İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib, önünə gül dəstəsi qoyub.

## Heydər Əliyev Mərkəzində akademik Zərifə Əliyevanın 100 illiyi münasibətilə konsert olub

### *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva konsertdə iştirak ediblər*

Aprelin 28-də Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş konsert proqramı təqdim olunub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva konsertdə iştirak ediblər.

Konsertdən əvvəl görkəmli alim, həkim, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, bütün işlərdə ona dayaq olan Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən fotosərgi nümayiş olunub.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə hazırlanan konsert akademik Zərifə Əliyeva haqqında filmin nümayişi ilə başlayıb.



Sonra isə səhnə əfsanəvi “Dan ulduzu” instrumental ansamblının ixtiyarına verilib. Konsertdə ansamblın repertuarından sevilən mahnılar ifa olunub. Konsertin proqramına Elza İbrahimova, Emin Sabitoğlu, Firəngiz Babayeva, İbrahim Topçubaşov, Oqtay Kazımi, Sevil Əliyeva və Tofiq Əhmədovun əsərləri, “Dan ulduzu” instrumental ansamblının yaradıcısı Gülarə Əliyevanın “Şüştər” muğamı əsasında yazdığı “Şüştər” rapsodiyası daxil edilib.

Zalda quraşdırılan ekranlarda akademik Zərifə Əliyeva haqqında, “Dan ulduzu” ansamblının çıxışlarını, ötən illərin və müasir dövrün Azərbaycanını əks etdirən kadrlar yayımlanıb.

Konsert bəstəkar Emin Sabitoğlunun “Nə gözəldir Azərbaycan” mahnısının bütün müğənnilər tərəfindən birgə ifa olunması ilə yekunlaşıb.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva akademik Zərifə Əliyeva ilə bir dövrdə çalışmış oftalmoloqlarla söhbət ediblər

Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva ilə bir dövrdə çalışmış oftalmoloqlarla çay süfrəsi arxasında söhbət ediblər.



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycana həsr etmiş Türkiyə idmançıları ilə görüşüblər



Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İrəvanda keçirilmiş ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycana həsr etmiş Türkiyə idmançıları ilə görüşüblər.

Türkiyəli idmançıları salamlayan **Prezident İlham Əliyev** dedi:

– Mən sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Siz Ermənistanda keçirilmiş Avropa çempionatında şanlı Türk Bayrağını göylərə qaldırmısınız, Milli Marşı səsləndirmisiniz. Bu münasibətlə sizi bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Eyni zamanda bu qələbəni Azərbaycana həsr etmisiniz. Bu bizi xüsusilə sevindirən bir haldır. Bu, bir daha onu göstərir ki, Türkiyə-Azərbaycan – iki qardaş ölkə bütün məsələlərdə bir yerdədir. Biz olmayan yerdə siz varsınız, siz olmayan yerdə biz varıq. Biz birik, biz müttəfiqik, biz qardaşıq.

Sizin qələbənizin xüsusi önəmi var. Siz gənc idmançılarsınız, sizin həyatınızda hələ neçə-neçə qələbələr olacaq, amma bu qələbənin özəlliyi var. Çünki Azərbaycana qarşı, bizim milli rəmz olan Bayrağımıza qarşı hörmətsizlik olunan zaman siz ədaləti bərpa etmisiniz. Türk Bayrağının orada qaldırılması ədaləti bərpa etmək idi. Türkiyə dövlətinin Milli Marşının səsləndirilməsi bütün orada oturanları ayağa qaldırdı. Bizim Bayrağımızı yandırdılar, amma bizim üçün öz Bayrağımız qədər əziz olan Türk Bayrağı orada dalğalandı. Bunu da siz etmisiniz, gözəl gənclər, qardaş ölkənin nümayəndələri.

Bildiyiniz kimi, Mehriban xanım və mən sizi məktubla təbrik etdik, Azərbaycana dəvət etdik. Şadam ki, siz bizim dəvətimizi qəbul edib Azərbaycana, öz doğma Vətəninizə gəlmisiniz və sizin bu gəlişiniz bir daha bizim birliyimizi göstərir.

Bayraq yandırmaq heç kimə şərəf gətirmir. Bu gün bizim bayraqlarımız, iki qardaş ölkənin bayraqları – Türkiyə, Azərbaycan bayraqları Ağrıdağda, Murov dağında, Zəngəzur dağlarında, Şuşada bir yerdə dalğalanır və əbədi dalğalanacaq, hər zaman bir yerdə.

Sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Bir daha Türkiyə-Azərbaycan birliyini nümayiş etdirdiyiniz üçün mən sizi Azərbaycan dövlətinin yüksək nişanı olan "Tərəqqi" medalı ilə təltif edirəm və indi bu medalı sizə təqdim etmək istəyirəm.

***

Sonra türkiyəli idmançılar Cansu Bektaş, Qamze Altun və Nuray Güngörün İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycan və Türkiyə arasında sarsılmaz qardaşlıq münasibətlərinin təzahürü kimi Azərbaycana həsr etdiklərinə görə "Tərəqqi" medalı ilə təltif edilmələri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxundu.

Prezident İlham Əliyev medalları türkiyəli idmançılara təqdim etdi.

Daha sonra xatirə şəkli çəkdirildi.

***

Türkiyə Ağır Atletika Federasiyasının prezidenti **Talat Ünlü**: – Bizim də hədiyyələrimiz var, cənab Prezidentim, onları da verərdik. Hörmətli cənab Prezidentim. Bu, Ermənistanda qazandığımız ilk qızıl medallardan biridir. Cansu qızımızın ərməğan etdiyi medaldır. Bunu ölkəm, ağırlıqqaldırma qurumumuz və Cansu adından qəbul etməyinizi Sizdən xahiş edirəm.

**Prezident İlham Əliyev**: – Çox təşəkkür edirəm, çox sağ olun.

**Mehriban xanım Əliyeva**: – Çox sağ olun.

**Talat Ünlü**: – Bu medal günün anlamı və önəmi üçün çox vacibdir. Bilirsiniz, orada Azərbaycan Bayrağına qarşı törədilən hücum hamımızı dərindən kədərləndirdi. Həmin gecə biz azərbaycanlı qardaşlarımızla birlikdə eyni hissləri yaşadıq. İndi də danışdıqca insanın tükləri biz-biz olur. Uşaqlarımız əzmkarlıq göstərdilər və gözəl nəticələr əldə etdilər. Allaha çox şükür. İnşallah, bundan sonra da birliyimiz, bərabərliyimiz, – hər zaman bunu söyləyirik, – iki dövlət, bir millət, amma birlikdə iri, diri və güclü olmalıyıq.

**Prezident İlham Əliyev**: – İnşallah.

**Mehriban xanım Əliyeva**: – İnşallah, amin.

**Talat Ünlü**: – Bilirik ki, bizim Prezidentimizlə Siz qardaşsınız. Bu bizim üçün çox önəmlidir. Bunu qəbul etməyinizi xahiş edirəm.

**Prezident İlham Əliyev**: – Doğrudur. Çox sağ olun, təşəkkür edirəm. Bunu bizim idman muzeyində qoymalıyıq. Bu, Türkiyə-Azərbaycan birliyinin növbəti simvoludur və bizim gənclərimizin yüksək keyfiyyətə malik olmasının təzahürüdür. Bax ağır bir yarışda qazanılmış bu medalı bizim Cansu qızımız Azərbaycana ərməğan etdi. Sağ ol. Bütün Azərbaycan xalqı səni sevir, sən bilirsən, sizin hamınızı. Çox sağ olun.

**Cansu Bektaş**: – Mən də onları çox sevirəm.

Türkiyə Ağır Atletika Federasiyasının vitse-prezidenti **Yasin Arslan**: – Bu da bizim federasiyamızın – Türkiyə Ağır Atletika Federasiyasının loqosudur, cənab Prezidentim. Xahiş edirəm, bunu da qəbul edəsiniz.

**Prezident İlham Əliyev**: – Çox təşəkkür edirəm.

**Talat Ünlü**: – Bu, Mehriban xanıma hədiyyədir.

**Mehriban xanım Əliyeva**: – Çox sağ olun, çox təşəkkür edirəm. Mən onu geyinim, bərabər şəkil çəkdirək. Çox sağ olun.

**Talat Ünlü**: – Bu da günün anlam və önəmi üçün, cənab Prezidentim, Sizə ölkəmizin milli forması.

Sonra görüş çay süfrəsi arxasında davam etdirildi.

**Prezident İlham Əliyev**: – Bir daha təbrik edirəm. Siz, doğrudan, bütün Azərbaycan xalqını sevindirdiniz. Cansu qızımız söylədi ki, Azərbaycana ərməğan edirəm. Bütün Azərbaycan xalqının duyğularına toxundu, hamımızı xoşbəxt etdi. Biz Mehriban xanımla sizə yazdığımız məktubda qeyd etdik ki, sizinlə qürur duyuruq. Həqiqətən, belədir.

**Talat Ünlü**: – Hörmətli cənab Prezidentim, həm Mehriban xanıma, həm də Sizə ölkəm adından, idmançılarım adından çox təşəkkür edirəm. Bizi çox xoşbəxt etdiniz. Çünki belə bir gündə bizi buraya dəvət etməyiniz, burada qonaq qəbul etməyiniz çox böyük bir məna və önəm daşıyır. Orada ən çox üzücü olan bayrağımızın yandırılması, təbii ki, içimizi yandırdı.

**Prezident İlham Əliyev**: – Bəli, bir də ki, o bayrağı yandırana hər hansı bir cəza da verilmədi, heç bir şey edilmədi, heç bir söz də deyilmədi, əksinə, onu alqışlarla salamladılar. İndi bilirsiniz, bayraq yandırmaqla heç kim heç nə əldə etmir. 24 apreldə Azərbaycan və Türkiyə bayraqlarını Ermənistanın əsas meydanında yandırmışdılar. Amma bizim bayraqlarımıza onlar Ağrıdağda, mən dedim, Murov dağında, Şuşada yaxınlaşa bilərlərmi? Təbii ki, yox. Ona görə bu onların acizliyini göstərir, gücsüzlüyünü göstərir.

Bizim qızlarımız orada bayrağı qaldırdılar və Türkiyənin Milli Marşı səslənəndə bütün orada oturanları ayağa qaldırdı. Bax zəfər budur, qürurverici hallar budur. Bizim dövlətlərimiz də, xalqlarımız da bu zəfərə layiqdir. İkinci Qarabağ savaşında Türkiyə həmişə bizim yanımızda idi, bütün digər məsələlərdə, idmanda hər zaman bir yerdə.

İndi mən sizi növbəti dəfə Qarabağa dəvət edirəm. Arzu edirəm ki, növbəti gəlişiniz Qarabağa olsun. Orada da görərsiniz ki, Şuşa şəhərində Türkiyə və Azərbaycan bayraqları yan-yana dalğalanır. Bu, xalqlarımızın qəlbində olan böyük sevginin təzahürüdür.

**AZƏRTAC**

---

*2023-cü il "Heydər Əliyev İli"dir*

## Vətənə, milli dəyərlərimizə sədaqət örnəyi



Tarixboyu Azərbaycan xalqının ailə dəyərləri milli inkişafımızın formalaşmasında mühüm rol oynamışdır. Çünki bu ali dəyərlər sistemi xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısıdır. Azərbaycan cəmiyyətində ailə institutu, bir sıra toplumlardan fərqli olaraq özünün sosial təyinatını və milli-mənəvi missiyasını daha tam və dolğun şəkildə saxlamaqdadır. Xalqımızın formalaşdırdığı dəyərlər zaman keçdikcə daha da şaxələnir, yeni pöhrələri ilə müqəddəsləşən hiss və düşüncələrimizə hakim kəsilir, nəcib duyğularımızın dar məqamlarda ən yaxın köməkçisinə çevrilir. Qarşılıqlı sevgi və ehtiram kimi dəyərləri özündə ehtiva edən bu duyğular mental yaddaşımızın Leyli və Məcnun, Əsli və Kərəm, Fərhad və Şirin, qəlbləri Vətən, azadlıq eşqiylə coşan İlham və Fərizəni xatırladır. Lakin nakam sonluqla bitməyən və dəyərləri ilə hər bir azərbaycanlı ailəsinin örnəyinə çevrilmiş sevgi hekayələri də var. Əliyevlər ailəsi kimi.

Mənəviyyat tariximizdə öz dərin izlərini buraxmış, bütöv nəsillərə nümunə ola biləcək bu sevgi hekayəsini, bir zaman birlikdə ifa etdikləri, hər birimizin dillər əzbəri olan "Alagöz" mahnısının sözləri ilə başlamaq istəyirəm:

*Kipriklərin oxdu, qaşın kamandı,*
*Ay qız, məndən üz döndərmə, amandı...*

Bu sevgi hekayəsinin qəhrəmanları sonralar Azərbaycan xalqının Ümummilli Liderinə çevriləcək Heydər Əliyev və gözlərə nur bəxş etmiş böyük alim Zərifə Əliyevadır. Ailə dəyərlərinin özülünü sevgilərində təcəssüm etdirən bu iki nəcib insan, sədaqətli ömür-gün yoldaşı olmuşlar. Onların həyat hekayələri musiqi əsərləri kimi ecazkar, rəssam palitrası kimi rəngarəng idi.

Ulu Öndər Heydər Əliyev bir ailə başçısı kimi, bu ailənin memarı olaraq bünövrəsini sağlam təməllər üzərində ucaldırdısa, Azərbaycan qadınlığının mücəssiməsi olan Zərifə xanım Əliyeva da bu ocağı nurlandırırdı. Zərifə Əliyevanın taleyindəki ən ali missiya Heydər Əliyev kimi dahi şəxsiyyətin, müdrik dövlət başçısının həyat yoldaşı, siyasət yolundakı silahdaşı olmaq idi. Zərif, amma güclü iradəyə malik Zərifə xanım bu möhtəşəm missiyanı şərəf və fərəh hissi ilə daşıyırdı.

Müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan xalqının xilaskarı və Ümummilli Lideri məqamına yüksəlmiş Heydər Əliyevin bu ləyaqətli həyat yolunda, heç şübhəsiz, onun fədakar ömür-gün yoldaşı, sadiq sirdaşı Zərifə xanım Əliyevanın rolu danılmazdır. Xalqımızın ailə dəyərləri sistemində bir kişinin qadına verdiyi ən ali qiymət idi Heydər Əliyevin Zərifə xanım haqqında dedikləri: ***"...Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və O, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və O da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib".***

Zərifə xanım nadir, unikal xarakterə malik qadın idi. İstər qadın, istərsə də ana kimi xoşbəxt idi Zərifə xanım. Onun varlığı unudulmaz mənəvi güc, bir rahatlıq idi böyük dühamız üçün. Ona olan sevgisindən ilham alaraq qurub yaradırdı. Ancaq onların bir missiyası da var idi: bu, Vətənə layiqli övladlar yetişdirib, onları düzgün istiqamətləndirmək idi. Və təsadüfi deyil ki, bu mənəvi vəzifənin öhdəsindən də layiqincə gəldilər.

Bu gün Azərbaycana haqqında danışdığımız nümunəvi ailənin yetirməsi, Ulu Öndər Heydər Əliyev siyasi yolunun layiqli davamçısı cənab İlham Əliyev başçılıq edir. Atasının yolunu şərəflə davam etdirən, görkəmli siyasi və dövlət xadimi cənab İlham Əliyevin bu yolda formalaşmasında anası Zərifə xanımın da rolu çox böyük olmuşdur. İlham Əliyev anası Zərifə xanım haqqında xatirələrindən fəxarətlə söz açarkən demişdir: ***"Zərifə xanım böyük lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə Ona dayaq olurdu, Onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər, əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Əlbəttə, 1970-ci illərdə – Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının, əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – birinci katibin həyat yoldaşıdır. Həmişə Onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi".***

Bu ailənin sağlam təməllər üzərində qurulmasının örnəyidir ki, ayrı-ayrılıqda hər bir üzvü Azərbaycan xalqının təəssübkeşi və xilaskarına çevrilmişlər. Onların cənab İlham Əliyev və Sevil Əliyeva kimi Vətənə sədaqətli övladları var.

Zərifə xanımın mənəvi keyfiyyətlərini özündə birləşdirən Azərbaycanın birinci xanımı Mehriban Əliyeva bu zəngin mənəviyyatdan bəhrələnərək istər şəxsi həyatında, istərsə də ictimai fəaliyyətində böyük işlər görür. Mehriban xanım Əliyeva Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədilə yaradılmış Heydər Əliyev Fondunun prezidentidir. Bu fondun fəaliyyəti isə hər bir azərbaycanlıya məlumdur.

Ailə dəyərlərinin yorulmaz davamçısına çevrilmiş daha bir nümunə isə Leyla xanım Əliyevadır. Leyla xanımın təşəbbüsü ilə hər il "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyası çərçivəsində silsilə tədbirlərin və digər humanist aksiyaların reallaşdırıldığını görürük. Və bütün bunların sonunda biz bir xalq, dəmir yumruq olaraq 30 illik işğaldan sonra əldə etdiyimiz böyük Zəfərdə bir Ananın övladına aşıladığı vətənpərvərliyin, xalqa, dövlətə sevgi ilə xidmət etməyin əsl nümunəsinin şahidi olduq. Elə Əliyevlərin ailə şəcərəsinin əsas prinsipi də Vətənə əsl vətəndaş kimi şərəflə xidmət etməkdir.

**Aidə İBRAHİMOVA**

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



*Aprelin 28-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə "Heydər Əliyev məhkəmə-hüquq islahatlarının banisidir" mövzusunda elmi-praktiki konfrans keçirilib.*

Konfransdan öncə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyub, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət edilib.

"Naxçıvan Palace"da davam edən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndərin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra dahi şəxsiyyət Heydər Əliyevin ömür yoluna və fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.

Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi açaraq bildirib ki, XX əsrdə xalqımızın dünya siyasətinə bəxş etdiyi qeyri-adi və fenomen şəxsiyyət – Ümummilli Lider Heydər Əliyev özünün təkmil dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman prioritet verərək bu meyarları demokratik inkişafın başlıca leytmotivi saymışdır. Ulu Öndərin Azərbaycana siyasi rəhbərliyinin hər iki mərhələsi xalqımızın tarixən can atdığı milli müstəqilliyə qovuşmasında mühüm rol oynamışdır. Ümummilli Liderlik zirvəsinə ucalmış böyük strateq Heydər Əliyevin milli müstəqilliyin qazanılması, qanunçuluğun bərpası, demokratik-hüquqi və sosial-iqtisadi islahatların reallaşdırılması sahəsindəki misilsiz xidmətləri qədirbilən xalqımız tərəfindən daim yüksək dəyərləndirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamına əsasən bu il anadan olmasının 100-cü ildönümü böyük təntənə ilə qeyd edilən Ümummilli Liderimiz Azərbaycan xalqının həm də hüquqi dövlətdə yaşamaq arzusunu reallaşdırmış fenomenal şəxsiyyətdir. Görkəmli dövlət xadimi müstəqil ölkəmizdə dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimlənməsi, insan hüquq və azadlıqlarının məhkəmələrdə maksimum dərəcədə qorunması istiqamətində genişmiqyaslı islahatların reallaşdırılmasını təmin etmişdir.

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Daşqın Rəhimov çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev öz işıqlı əməlləri ilə xalqımızı tarixi müstəqilliyinə qovuşdurmuş, dövlətçiliyimizin qorunub saxlanmasında mühüm xidmətləri olmuş nadir şəxsiyyət, parlaq zəka sahibidir. Müstəqilliyin təmin edilməsinin və qorunub saxlanmasının nə qədər çətin olduğunu dəfələrlə bəyan edən Ümummilli Lider ötən yüzilliyin sonunda Azərbaycan xalqının bu haqqını gerçəkliyə çevirdi. Azərbaycan üçün demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş dahi rəhbərin həyata keçirdiyi hüquqi islahatlar çərçivəsində ədliyyə sahəsində köklü dəyişikliklər baş vermiş, onun cəmiyyətdə rolu və əhəmiyyəti artmışdır.

Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev qeyd edib ki, dahi şəxsiyyətin Azərbaycana qayğısı, onun dövlətçiliyimizin taleyindəki vacib missiyaları 1940-cı illərdən başlamış, həm Azərbaycana birinci rəhbərliyi dövründə, həm də müstəqilliyimizin bərpasından sonrakı mürəkkəb və ziddiyyətli zamanlarda xalqımızın, dövlətimizin maraqlarının müdafiəsi istiqamətində prinsipial qərarlar qəbul etmişdir. Onun əsasını qoyduğu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi hüquq islahatları prokurorluq orqanlarından da yan keçməmiş, məhz bu istiqamətdə köklü islahatlar həyata keçirilmiş və hazırda da davam edir. Bu isə, öz növbəsində, hüquq-mühafizə və məhkəmə orqanlarının üzərinə yeni öhdəliklər, vacib vəzifələr qoyur.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva çıxışında bildirib ki, Azərbaycanın



müasir tarixinin 35 ili Ulu Öndər Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti ilə bilavasitə bağlı olmuş və həmin illər ərzində ölkəmiz demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük uğurlar qazanmışdır. Məlumdur ki, iqtisadi sosial və siyasi islahatların həyata keçirilməsi qanunvericilik bazası olmadan mümkün deyildir. Buna görə də Ulu Öndər ölkəmizdə hüquqi dövlət quruculuğuna məhz müasir standartlara cavab verən hüquqi bazanın yaradılmasından başlamışdır. Ümummilli Liderin Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra insan hüquq və azadlıqlarının təmini məqsədilə həyata keçirilən hüquqi islahatlar sırasında yaşamaq hüququnun təmini istiqamətində görülən işlər, dövlət və vətəndaş münasibətlərində yeni başlanğıcın əsasını qoymuşdur.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Süleyman Neymətov çıxış edərək vurğulayıb ki, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində Ümummilli Liderimiz Heydər Əliyev şəxsiyyəti, Onun siyasi və idarəçilik fəaliyyəti əvəzolunmaz yer tutur. Tarixboyu arzuladığımız milli dövlətçilik amallarını məhz Ulu Öndərimiz gerçəkləşdirərək müstəqil Azərbaycan dövlətini yaratmışdır. Ümummilli Lider xalqın tələbi ilə hakimiyyətə gəldikdən sonra ölkədə hüquqi dövlət quruculuğu sahəsində ardıcıl, sistemli və gələcəyə hesablanan islahatlara başlanılmış, Azərbaycanın dünyada müstəqil, hüquqi və demokratik dövlət kimi tanınması, ölkə vətəndaşlarının hüquq və azadlıqlarının təmin edilməsi məhz Ulu Öndərin adı ilə bağlı olmuşdur. Azərbaycan polisinin də əsl inkişafı və milliləşməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Həyata keçirilən davamlı islahatlar, cinayətkarlığa qarşı mübarizə üzrə normativ-hüquqi aktların və qanunların qəbul edilməsi polisin fəaliyyətinin tənzimlənməsi baxımından böyük əhəmiyyətə malik olmuşdur.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxışında bildirib ki, Ulu Öndərin 100 illik yubileyi böyük qürurla qeyd edilir. Zaman bizi ömrünü xalqının qurtuluşuna, onun müstəqilliyinə və inkişafına həsr etmiş Ulu Öndərdən ayırdıqca onun xalqımızın taleyindəki mühüm rolu, dövlətimizin inkişafına istiqamətlənmiş fəaliyyətinin uğurlu nəticələri daha aydın görünür. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrə nəzər saldıqda onun məhz repressiyalar, müharibələr, siyasi gərginliklər fonunda reallaşdırdığı uğurlu siyasətin Azərbaycan dövlətinin və xalqının gələcəyindəki önəmi daha kəskin nəzərə çarpır. Məhz onun dərin zəkası, savadı, güclü mütaliəsi ilə bir çox mürəkkəb siyasi məqamlar Azərbaycan xalqının xeyrinə öz həllini tapmışdır ki, bu da yalnız liderin xalqına olan dərin sevgisi, hörməti və öz amalında qətiyyətli addımları sayəsində mümkün olmuşdur.

Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədri vəzifəsini müvəqqəti icra edən Vüsal Həsənov, Naxçıvan Mediasiya Təşkilatının sədri Yusif Həsənov çıxışlarında bildiriblər ki, Ümummilli Liderimiz müstəqil Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi, onların müdafiəsinin daha da genişləndirilməsini dövlətin ən ali məqsədi elan etmiş, bu məqsədlə islahatların hüquqi bazasının yaradılması istiqamətində fəaliyyət göstərmişdir.

Çıxışlardan sonra qarşılıqlı müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

* * *



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin və Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə dünən Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əməkdaşları tərəfindən nazirliyin mühəndis-proqramçıları və hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları ixtisasının IV kurs tələbələri üçün vebinar keçirilib.

Vebinarı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilib.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan rabitə sahəsinin gələcək inkişafı üçün bir sıra mühüm qərarlar qəbul edilib, ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün maddi-texniki baza yaradılıb, ölkə iqtisadiyyatının inkişafına qoyulan investisiyaların tərkibində telekommunikasiya sahəsinin həcmi ilbəil artıb.

Nazir vebinarın əhəmiyyətinə də toxunaraq qeyd edib ki, mühəndis-proqramçıların bilik və bacarıqlarının artırılması istiqamətində nazirlik tərəfindən zəruri tədbirlər həyata keçirilir. Bugünkü vebinar da bu qəbildəndir.

Vebinarda Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əməkdaşları Günay Əbdiyevanın "Kibertəhlükəsizlikdə məlumatlılıq və işə təsir analizi", Murad Balayevin "Zərərvericilər ilə yoluxma texnikası", Azər Məlikovun isə "OSİNT (Open-source intelligence – Açıq mənbə kəşfiyyatı) və sosial mühəndislik" mövzularında çıxışları dinlənilib.

Çıxışlar zamanı məlumatların qorunmasında istifadəçilərin mümkün kiberhücumlardan mühafizə olunmaları barədə ətraflı məlumatlar verilib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***



"Heydər Əliyev İli" ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin kollektivinin iştirakı ilə "Heydər Əliyev və Azərbaycan idmanı" mövzusunda tədbir keçirilib.

Gənclər və idman naziri Ramil Hacı bildirib ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik illərində ölkəmizdə idmanın inkişafı ilə bağlı normativ-hüquqi aktlar qəbul olundu, yeni inkişaf strategiyası tətbiq edildi, idmançılara dövlət dəstəyi artırıldı, idmanın maddi-texniki bazası genişləndirildi, beynəlxalq arenada böyük idman nailiyyətləri əldə olundu. Atılmış möhkəm təməllər və Prezident cənab İlham Əliyevin səyləri sayəsində bu gün Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib, yüksək nailiyyətlər qazanılıb, dünya səviyyəsində tanınan, rəğbət bəslənilən idmançılarımızın sayı artıb.

Qeyd edilib ki, ölkəmizdə həyata keçirilən idman siyasətinin uğurlu icrası Naxçıvan Muxtar Respublikasını da əsaslı şəkildə əhatə edir. Bunun nəticəsidir ki, on minlərlə uşaq və gəncin idmanla məşğul olması üçün əlverişli şərait mövcuddur. Dövlət xətti ilə gənclərin sağlam həyat tərzinə cəlbi, maddi-texniki bazanın gücləndirilməsi, peşəkar idmançıların hazırlanması, ümumilikdə, bədən tərbiyəsi və idmanın inkişafı istiqamətində əməli addımlar atılır, yeni nailiyyətlər qazanılır. Diqqətə çatdırılıb ki, "Heydər Əliyev İli" ilə əlaqədar müxtəlif tədbirlər keçirilir, Ümummilli Liderin xatirəsinə həsr olunmuş idman yarışları təşkil edilir.

İstedadlı gənc şahmatçı, FIDE ustası Nəsrin Babayeva dahi şəxsiyyət Heydər Əliyevin idmançılara göstərdiyi qayğı barədə danışıb.

Çıxışların ardınca tədbir iştirakçıları muzeyin ekspozisiyası ilə yaxından tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

* * *




Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin kollektivi Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Heydər Əliyev Muzeyini ziyarət edib.

Əvvəlcə agentliyin əməkdaşları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Daha sonra kollektivə Heydər Əliyev Muzeyinin fəaliyyəti ilə bağlı məlumat verilib. Diqqətə çatdırılıb ki, muzeydə nümayiş etdirilən eksponatlar böyük şəxsiyyətin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirir. Bu mədəniyyət müəssisəsində Ulu Öndərin 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlar, imzalanmış protokol və müqavilələr, məktub və teleqramlar, istifadə etdiyi xatirə əşyaları nümayiş olunur.

**✍ Səbuhi HƏSƏNOV**

## Ümumdünya Əməyin Mühafizəsi Günü qeyd edilib



Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr olunan tədbir keçirilib. Tədbiri giriş sözü ilə şuranın sədri Anar İbrahimov açaraq bildirib ki, 28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Gündən danışarkən, ilk növbədə, gözlərimiz önündə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi mənzərəsi dayanır. Ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə insanların rahatlığına xidmət edən çəkilən hamar yollar, sağlamlığımız naminə yaradılan yaşıllıqlar, tikilən körpülər, elm, mədəniyyət, səhiyyə, təhsil ocaqları, idman şəbəkələri, istehsal müəssisələri və hər il həyata vəsiqə alan yüzlərlə yeni tikililər günümüzün reallıqlarıdır. Qədim diyarımıza gələn hər bir qonaq bu yurdun füsunkar və ecazkar təbiətinə, burada zövqlə aparılan quruculuq və abadlıq tədbirlərinə valeh olmaqla yanaşı, Naxçıvanda vətəndaşlara göstərilən dövlət qayğısından da fərəhlə söhbət açırlar. Heç kimə sirr deyil ki, doğma Naxçıvanımızda aparılan bu məqsədyönlü islahatların kökündə muxtar respublika vətəndaşının rahatlığı, səmərəli məşğulluğu, onun üçün yaradılan sağlam və layiqli iş yeri, əmək şəraiti, əməyin mühafizəsi mədəniyyətinin formalaşdırılması və təhlükəsizliyi dayanır.

Qeyd olunub ki, hər il əməyin mühafizəsi günü ilə bağlı maarifləndirici tədbirlər həyata keçirilir. "Müasir dövrün devizi – layiqli əmək", "Əməyin mühafizəsi mədəniyyətini formalaşdırmaq günün tələbidir", "Təhlükəsiz əmək həyatımızın mənasını təşkil edir" və digər mövzularda silsilə tədbirlər həyata keçirilir.

Anar İbrahimov vurğulayıb ki, Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında dövlətimizin başçısının müvafiq Sərəncamı ilə bağlı şura ona üzv olan muxtar respublika və rayon Birləşmiş Həmkarlar İttifaqı Komitələri özlərinin hazırladığı Tədbirlər Planına uyğun olaraq ilk təşkilatlarda "Heydər Əliyev və Həmkarlar İttifaqları", "Sosial-iqtisadi və hüquqi maarifləndirmə", "Azərbaycan Respublikasının Qanununda öz əksini tapan əməyin mühafizəsi", "Əmək hüquqlarının qorunması", "İşçilərin həyat səviyyəsinə nəzarətin həyata keçirilməsi" və bir çox müddəalar, normativ-hüquqi aktlar barədə məlumatlandırılıblar.

Sonra mövzu ilə bağlı digər çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə bağlı tədbirlər keçirilib



Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı, AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tərəfdaşlığı ilə ali təhsil ocağında "Akademik Zərifə Əliyeva – 100" adlı konfrans keçirilib. Tədbirdən öncə universitetdə Zərifə xanım Əliyevaya həsr olunmuş sərgiyə baxış olub. Konfrans Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev və akademik Zərifə xanım Əliyevanın, torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda canlarını qurban verən şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan akademik Zərifə xanım Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf edib, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırıb. Vurğulanıb ki, Zərifə xanım böyük alim olmaqla yanaşı, görkəmli ictimai xadim və parlaq şəxsiyyət kimi də Azərbaycan tarixində xüsusi yer tutur.

Rektor ali təhsil ocağında Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1999-cu ildə əsası qoyulmuş Tibb fakültəsi haqqında məlumat verib. Bildirilib ki, universitetdə görkəmli alim Zərifə Əliyeva adına fəxri təqaüd də təsis edilib.

"Akademik Zərifə xanım Əliyevanın həyat yolu" mövzusunda çıxışında AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 3 noyabr tarixli Sərəncamı ilə 100 illik yubileyi ölkə miqyasında geniş qeyd olunan görkəmli oftalmoloq-alim, akademik zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçib, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr verib. Alimin oftalmologiyanın aktual məsələlərinə dair apardığı araşdırmaların nəticəsi olan sanballı elmi əsərləri hər zaman yüksək qiymətə layiq görülüb.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir müavini vəzifəsini müvəqqəti icra edən Samiq Sadıxov qeyd edib ki, Azərbaycan milli oftalmologiyasının banilərindən olan görkəmli akademik elmdə bir çox ilklərə imza atmaqla 1981-ci ildə bu elmin inkişafına verdiyi töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı tədqiqatlara görə oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax mükafatına layiq görülüb. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası məhz akademik Zərifə xanım Əliyevanın təşəbbüsü ilə yaradılıb. Samiq Sadıxov muxtar respublikada göz xəstəlikləri sahəsində qazanılan yeniliklər barədə də məlumat verib.

Naxçıvan Dövlət Universiteti Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent İlhamə Mustafayeva, universitetin Ümumi təbabət və klinik fənlər kafedrasının professoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi İsa Abdullayev, Tibb fakültəsinin tələbəsi, Zərifə xanım Əliyeva adına təqaüdçü Püstəxanım Quliyeva konfransda müxtəlif mövzularda çıxış ediblər.

Sonda akademikin həyat yolundan bəhs edən film nümayiş olunub.



Aprelin 28-də Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında keçirilən tədbirdə əvvəlcə tədbir iştirakçıları görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, poliklinikanın foyesindəki büstü önünə tər çiçəklər düzüb, onun xatirəsinə həsr olunmuş guşəyə baxıblar.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifəsini müvəqqəti icra edən Samiq Sadıxov muxtar respublika səhiyyəsində baş verən yeniliklərdən və göstərilən diqqətdən danışaraq ölkəmizdə ilk olaraq Naxçıvan Muxtar Respublikasında ən çox yayılan göz xəstəliklərindən olan keratakonusun müəyyən edilməsi üçün skrininq keçiriləcəyini bildirib, xəstəliyin vaxtında aşkar edilməsi və müalicəsini aparmaq baxımından onun əhəmiyyətindən danışıb. Vurğulanıb ki, Azərbaycanda ilk olaraq keçirilən bu layihənin belə əlamətdar gündə – akademik, oftalmoloq-alim Zərifə xanım Əliyevanın 100 illik yubileyi günündə start götürməsi və bu yubileyə həsr edilməsi şərəfvericidir.

Sonra Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının baş həkimi Səadət İbrahimova çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyev 1990-cı və 1999-cu illərdə akademik Zərifə xanım Əliyevanın adını daşıyan poliklinikada olub. 2012-ci ilin mayında ölkə Prezidenti cənab İlham Əliyev Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının yeni binasının açılışında iştirak edib. Zərifə xanımın adını daşıyan səhiyyə müəssisəsində işləmək hər bir tibb işçisi üçün böyük məsuliyyətdir.

Naxçıvan Şəhər Poliklinikasının həkim-oftalmoloqu Kamilə Orucəliyeva çıxışında görkəmli akademikin oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlarından bəhs edib.

Sonra iştirakçılar Naxçıvan Qızlar Liseyinin şagirdləri tərəfindən görkəmli alimə həsr olunmuş şeirlərin bədii qiraətini dinləyib, sənədli filmə baxıblar.

Tədbir Zərifə xanım Əliyevanın yüzillik yubileyinə həsr edilmiş möhtəşəm fləşmobun təqdimatı ilə yekunlaşıb.

* * *



Heydər Əliyev Muzeyindən muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan görkəmli alim, tibb elmləri doktoru, akademik Zərifə Əliyevanın anadan olmasının 100-cü ildönümü münasibətilə interaktiv dərs keçirilib.

"Oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva" mövzusunda dərsi Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbin tarix müəllimi Azad Şirzadov aparıb.

Diqqətə çatdırılıb ki, zəhmətsevərliyi, səmimiliyi, yüksək intellekti ilə insanların rəğbətini qazanan akademik Zərifə xanım Əliyevanın şəxsiyyətində doğma Vətənə, xalqa bağlılıq və başqa yüksək mənəvi keyfiyyətlər öz təcəssümünü tapmışdır.

Qeyd olunub ki, görkəmli akademik yüksəkixtisaslı kadrların hazırlanmasına da böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlər və həkim-oftalmoloqlar nəsli yetişib. Görkəmli alim tələbələrinə zəngin həyat təcrübəsi öyrədib, onlara diqqət və qayğı ilə yanaşıb. Apardığı elmi tədqiqatların sosial əhəmiyyəti, özünün ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətləri layiqincə qiymətləndirilərək 1983-cü ildə Zərifə xanım Əliyeva Azərbaycan Elmlər Akademiyasının akademiki seçilib. Oftalmoloq-alim xidmətlərinə görə orden və medallarla təltif olunub, Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

Vurğulanıb ki, akademik Zərifə xanım Əliyevanın qazandığı elmi uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. İstedadlı alim oftalmologiyanın aktual mövzuları üzrə çoxprofilli tədqiqatlar apararaq dəyərli elmi-tədqiqat əsərləri ərsəyə gətirmişdir. Apardığı tədqiqatların gedişində onlarla elmi məqalə və monoqrafiyalar çap etdirmişdir.

Vurğulanıb ki, böyük alimin həyatı, Vətəninə, xalqına sədaqəti, elmə xidməti, sahib olduğu insani məziyyətlər gənc nəsil üçün əsl örnəkdir.

İnteraktiv dərs muxtar respublikanın 200-ə yaxın ümumtəhsil məktəbinin şagirdləri tərəfindən dinlənilib.



Naxçıvan Tibb Kollecində keçirilən tədbirdə çıxış edən kollecin direktoru Sona Məmmədova bildirib ki, Azərbaycan tibb elminin inkişafına böyük töhfə verən akademikin həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri zəngin və çoxşaxəlidir. Zərifə xanım bir həkim, alim və vətəndaş kimi bütün ömrü boyu xalqı üçün çalışıb və Onun adı bu gün də Azərbaycanda fəxrlə, sonsuz qürur hissi ilə səslənir.

Sonra Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin aparıcı məsləhətçisi Xavər Babayeva "Bir ömrün səhifələri" mövzusunda çıxış edərək bildirib ki, gözəl ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq-alim Zərifə xanım Əliyevanın həyatı, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri zəngin və çoxcəhətlidir.

Tədbir Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası publik hüquqi şəxsin həkim-terapevti Nigar Səfərovanın, Naxçıvan Tibb Kollecinin müəllimi Lalə Talıbovanın və Naxçıvan Tibb Kollecinin tələbəsi Sevgi Nurəliyevanın çıxışları ilə davam edib.

Tədbirin sonunda görkəmli alim Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

* * *



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə Ulu Öndərin abidəsi ziyarət edilərək önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad olunub.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, Zərifə xanım Əliyeva çoxsaylı mükəmməl elmi əsərləri, vətənpərvərlik və insansevərlik xüsusiyyətləri, peşəkarlıq qabiliyyəti ilə başərilik zirvəsinə yüksəlib.

Sonra "Əsl Azərbaycan qadını nümunəsi – akademik Zərifə xanım Əliyeva" mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, 2023-cü ildə bir ailənin iki üzvü – Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyevanın 100 illik yubileyləri ölkəmizdə böyük təntənə ilə qeyd edilir. Dəyərli akademik tədqiqatçı-alim, həkimlik sənəti ilə yanaşı, sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ana olmaq missiyasını da şərəflə davam etdirərək ölkə başçısı cənab İlham Əliyev kimi bir oğul böyüdüb.

Sonra Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev Ümummilli Lider Heydər Əliyevin Zərifə xanım Əliyeva ilə bağlı xatirələrindən danışıb.

Tədbir rejissor Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminin nümayişi ilə davam edib.

Sonda muzeyin ekspozisiyasına baxış keçirilib.



Akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr edilmiş növbəti tədbir Naxçıvan Muxtar Respublikası Səhiyyə, Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri və Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşıb.

Belə ki, Naxçıvan Diaqnostika Müalicə Mərkəzi tərəfindən akademikin 100 illiyi ilə əlaqədar məhdud fiziki imkanlılar üçün professor, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi İsa Abdullayevin "Şərq qapısı" qəzetinin 14 aprel 2023-cü il tarixli nömrəsində dərc olunan "Azərbaycanın ilk qadın akademiki Zərifə xanım Əliyevanın elmi nailiyyətləri milli oftalmologiyamızın tarixi uğurudur" adlı məqaləsi brayl əlifbası ilə "Könül işığı" jurnalının xüsusi buraxılışında dərc edilərək Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən gözdən əlil uşaqlara hədiyyə olunmuşdur. Həmçinin həmin kateqoriyadan olan uşaqlar ibtidai təhsil səviyyəsi üzrə ehtiyac olan tədris və dəftərxana ləvazimatları ilə də təmin edilmişdir.

Həmçinin Zərifə xanım Əliyevanın uşaq evlərində yaşayan kimsəsiz uşaqlarda traxoma xəstəliyinin qarşısının alınmasında olan əvəzsiz rolundan yola çıxaraq Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbinin uşaqlarının Naxçıvan Diaqnostika Müalicə Mərkəzində oftalmoloji müayinələri aparılmışdır. Eyni gündə həmin məktəbin uşaqları üçün əyləncəli proqram, gözdən əlil, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün isə Naxçıvan Dövlət Kukla Teatrında film nümayişinə baxış təşkil olunmuşdur.

* * *



Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın doğulduğu Şahtaxtı kəndində akademikin adını daşıyan tam orta məktəbdə Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən "Maliyyə savadlılığı" layihəsi çərçivəsində məktəblilər üçün tədbir keçirilmişdir.

Tədbirdə idarənin əməkdaşı Nərgiz Allahverdiyeva tərəfindən ölkəmizdə istifadə olunan kağız və metal pul nişanları, dövriyyəyə buraxılmış yeni valyutalar, pul nişanlarının əsas elementləri və onların dizayn və mühafizə fəlsəfəsi və sair mövzularda məlumatlar şagirdlərin diqqətinə çatdırılmış, "Milli pul nişanlarımızın tarixi və mühafizə fəlsəfəsi" adlı videoslayd təqdim edilmişdir.

Tədbir şagirdlər arasında mövzu ilə bağlı yarışla davam etmiş keçirilmiş, qaliblərə hədiyyələr təqdim edilmişdir.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 305